**Turanxanım HÜMBƏTOVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**thumbatli@mail.ru**

# NİZAMİ AZƏRBAYCAN MUSİQİSİNDƏ

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması Nizami Gəncəvi haqqında yeni tədqiqatların aparılmasına, irsinin daha dərindən öyrənilməsi və təbliğinə səbəb olmuşdur. Nizami irsinə göstərilən bu böyük diqqət Nizami yaradıcılığının nə qədər ölməz və əbədi olduğunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nizami yaradıcılığını yüksək qiymətləndirərək deyir: "Nizami təkcə şair, müdrik söz ustası deyildi, həm də gözəl filosof idi. Onun əsərləri dünyanın azad fikir xəzinəsini layiqincə zənginləşdirmiş və bütün Şərq xalqlarını bəşəriyyətin firavanlığı naminə yaxşı, xeyirxah işlərə ruhlandırmışdır".

Nizami irsində insanları bu xeyirxah işlərə ruhlandıran ən güclü motivlərdən biri də musiqidir. Elə bu səbəbdəndir ki, Nizami yaradıcılığı daim Azərbaycan bəstəkarlarının və musiqişünaslarının diqqət mərkəzində olmuşdur. Nizami irsi XII əsr Azərbaycan musiqi mədəniyyətinin öyrənilməsində də mühüm rola malikdir. Ölməz bəstəkarlarımız dahi şairin əsərlərindən ilhamlanan operalar, romanslar, simfonik poemalar, baletlər, süitalar yaratmış, şairin qəzəllərinə möhtəşəm əsərlər

bəstələmişlər. Bu bəstəkarlar içərisində başlıca olaraq dahi Üzeyir Hacıbəyovu göstərmək olar. Üzeyir Hacıbəyov şairin qəzəllərinə "Sənsiz" (1941) və "Sevgili canan" (1943) kimi əsərlər bəstələyərək "romans-qəzəl" adlı kamera vokal musiqisinin yeni janrının əsasını qoymuşdur. Bəstəkar şairin "Yeddi gözəl" poemasına uyğun olaraq yeddi romans bəstələməyi planlaşdırmış, lakin yalnız ikisini bəstələmişdir. Romanslar Bülbül, Müslüm Maqomayev kimi görkəmli opera müğənnilərimiz tərəfindən ifa olunmuşdur.

Dahi Nizaminin yaradıcılığından ilhamlanan ölməz bəstəkarlarımızdan biri də Fikrət Əmirovdur. Nizami poeziyasının dərinliyi, zərifliyi, zəngin obrazlılığı onun diqqətini hələ gənc yaşlarından cəlb etmiş, ən unudulmaz əsərlərini məhz Nizamidən təsirlənərək yaratmışdır. Bunlar dünyanın ən məşhur dirijorlarının rəhbərliyi ilə ifa olunmuş, 1941-ci ildə simli orkestr üçün bəstələdiyi "Nizami" simfonik poeması, 1943-cü ildə bəstələdiyi "Gülüm" qəzəl-romansı və 1947-ci ildə bəstələdiyi "Nizaminin xatirəsinə" simfoniyasıdır.

Azərbaycanda ilk baletin müəllifi olan Əfrasiyab Bədəlbəyli isə 1939-cu ildə şairin həyatından bəhs edən "Nizami" adlı tarixi opera yaradır. Operanın həm musiqisi, həm də librettosu Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının süjet və motivləri əsasında Əfrasiyab Bədəlbəyli tərəfindən qələmə alınmışdır.

Dirijor və bəstəkar Niyazi Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması əsasında 1942-ci ildə eyniadlı opera bəstələmişdir.

Yaradıcılığında Uilyam Şekspir, Ömər Xəyyam, Mixail Lermontov, Aleksandr Puşkin kimi obrazlara müraciət etmiş böyük Azərbaycan bəstəkarı Qara Qarayev Səməd Vurğun, Rəsul Rza kimi şairlərimizlə yanaşı dahi Nizami yaradıcılığından da ilhamlanmış, şairin eyniadlı əsərlərinə 1949-1952-ci illərdə "Yeddi gözəl" baletini, 1969-cu ildə isə "Leyli və

Məcnun" simfonik poemasını bəstələmişdir. Balet ölkənin musiqi həyatında böyük hadisə kimi dəyərləndirilmiş və ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Baletin premyerası da böyük beynəlxalq marağa səbəb olmuşdur. SSRİ Xalq artisti, məşhur bəstəkar Dmitri Şostakoviç balet haqqında deyirdi: "Baletin ən güclü tərəfi onun musiqisidir. Q.Qarayev bu əsərində musiqi vergisini əvvəlki əsərlərindən daha qabarıq şəkildə büruzə vermişdir". Balet dünyanın bir çox opera və balet teatrlarında səhnələşdirilmişdir.

Yaradıcılığı boyunca Füzuli, Nəsimi, Aşıq Alı, Sabir, Hüseyn Cavid kimi bir çox klassiklərdən, ədiblərdən ilhamlanan və onların yaradıcılıqlarına müraciət edən Cahangir Cahangirov 1947-ci ildə Nizaminin anadan olmasının 800 illik yubileyi münasibətilə şairin sözlərinə "Gül camalın" romansını bəstələyir. Romansı ilk dəfə Bülbül ifa etmişdir.

Üzeyir bəyin davamçısı hesab olunan görkəmli bəstəkar, pedaqoq Süleyman Ələsgərov da Füzuli, Nəsimi kimi klassiklərimizin sözlərinə romanslar bəstələmişdir. Nizami Gəncəvinin sözlərinə bəstələdiyi "Sərvi xuramanım" romansı isə bəstəkarın ən sevilən əsərlərindəndir.

Dahi Qara Qarayevin yetirməsi, Azərbaycanın görkəmli bəstəkarlarından Tofiq Bakıxanov da Nizami yaradıcılığından kənarda qala bilməyən bəstəkarlardandır. Bəstəkarın Nizaminin "Xəmsə"si əsasında yaratdığı bu birpərdəli, üçeskizli balet "Xeyir və Şər" adlanır. Əsər dahi Azərbaycan şairi Nizaminin 850 illiyinə həsr olunmuş müsabiqədə mükafata layiq görülmüşdür.

Nizami poeziyasından bəhrələnən bəstəkarlar arasında Şəfiqə Axundovanın ("Nə gözəl"), Məmməd İsrafilzadənin ("Hüsnün gözəl"), Ədilə Hüseynzadənin ("Vəslin həvəsi") və başqalarının da adlarını qeyd edə bilərik.

Nizami və Nizami yaradıcılığı öz zərifliyi, estetikliyi, əzəməti və gücü ilə hələ də bir çox şairi, bəstəkarı təsirləndirməkdə, ilhamlandırmaqda davam edir.

**Thuranxanim Humbatova**

## NIZAMI IN AZERBAIJANI MUSIC

***Summary***

The thesis touches on the role of the great Azerbaijani poet Nizami Ganjavi in Azerbaijani music. At the same time, the thesis talks about the pearls of art have been created inspiring by Nizami's poetry by prominent Azerbaijani composers such as Uzeyir Hajibekhov, Qara Qarayev, Fikrat Amirov and others,and the images of Nizami which take an important place in their works.